# ƏLİŞİR NƏVAİ – İLK TÜRKCƏ DİVAN

Əlişir Nəvai 9 fevral 1441-ci ildə Herat şəhərində anadan olmuşdur.
Atası Qiyasətdin Kiçkinə Bahadır Teymur oğullarına mənsub aristokrat ailənin başçısı idi və Xorasan əmiri Əbülqasım Baburun xidmətində dayanırdı. Ana tərəfdən ulu babası Əbu Səid Çiçək isə Mirzə Bayqaranın bəylərbəyi idi. Əsl adı Nizaməddin Əlişir olan Nəvai Mirzə Bayqaranın nəvəsi Hüseyn Bayqara ilə birlikdə böyümüş və təhsil almışdır. Daha sonralar Hüseyn Bayqara Teymurilər dövlətinin hökmdarı olan zaman uşaqlıq dostu Nəvaini özünə köməkçi etdi. Ona möhürdarlıq, divanbəyliyi və sonra da “əmir” rütbəsini verdi. Dövrünün tanınmış alim və şairlərindən biri olan Hüseyn Bayqara və Əlişir Nəvai Heratı dövrün ən böyük mədəniyyət mərkəzinə çevirdilər. Nəvai yaxşı bir dövlət xadimi olduğunu da göstərmişdir.

1501-ci ildə 03 yanvar Heratda vəfat etmişdir.

Türk xalqları ədəbiyyat tarixinin müqayisəli öyrənilməsində, türk ədəbi dilinin rəsmi olaraq tarixi yer almasında böyük mütəfəkkir Əmir Əlişir Nəvai irsinin böyük rolu olmuşdur. Əlişir Nəvai ərəbcə və farscanı ana dili kimi bilir,öz dövründə bu dillərdə ən gözəl əsərləri yaza biləcək qədər incəliklərinə vaqif idi.Ancaq o dövrün dəbinə uyaraq ərəb dilində və xüsusilə fars dilində yazan Türk şairlərinə qarşı çıxır, türk dilinin əcnəbi dillərin kölgəsində qalmasına qarşı üsyan edirdi. Bu səbəbdən də o türkcə zəngin yaradıcılıq irsinə sahibdir. Onun türkcə yazılmış təxminən 50 min misralıq 4 divanı, həmçinin qəsidələrdən ibarət 10 min misralıq farsca 1 divanı, 25620 beytlik “Xəmsə”si və müxtəlif həcmlərdə olan təxminən 20 digər elmi-fəlsəfi (təzkirə, filoloji, dini-əxlaqi, tarixi və s.) əsərləri mövcuddur. Əlişir Nəvai yaradıcılığında lirika əhəmiyyətli yer tutur. Onun lirik əsərləri 5 divan şəklində tərtib olunub. Onlardan 4-ü türk, 1-i isə fars dilindədir. Əlişir Nəvai ilk türk divanını hökmdar Hüseyn Bayqaranın məsləhəti ilə tərtib edib.Ə.Nəvai “Mizanül-övzan” (“Vəznlərin tərəzisi”) əsərində beytlərinin sayı “25 minə yaxınlaşan türk dilində yazılmış 4 divan”ı haqqında məlumat verir.Türk dilində olan 4 divan “Mənalar xəzinəsi” ümumi adı ilə tanınır. “Xəzainul-məani” adlı divanı özlüyündə dörd qisimdən ibarətdir (bəzən bu divanı “Çahar divan” (“Dörd divan”) da adlandırırlar):

1. “Ğəraibus-siğər” (“Uşaqlığın qəribəlikləri”, 837 şeir);
2. “Nəvadiruş-şəbab” (“Gəncliyin nadirlikləri”, 759 şeir);
3. “Bədayəul-vəsət” (“Orta yaşın gözəllikləri”, 740 şeir);
4. “Fəvaidul-kibar” (“Böyüklüyün faydaları”, 793 şeir).

“Ğəraibus-siğər” (“Uşaqlığın qəribəlikləri”) divanında “Xəzainul-məani” ümumi toplusuna “Ön söz” yazmışdır. “Ğəraibus-siğər” divanında yeddi-səkkiz

yaşlarından ta iyirmi yaşına qədər yazdığı şeirləri daxil edilmişdir. "Nəvadiruş-şəbab" ("Gəncliyin nadirlikləri") adlı ikinci divanında gənclik illərində – 20 yaşından ta otuz beş yaşına kimi yazdığı şeirlərini toplamışdı. Burada 650 qəzəl, 1 müstəzad, 3 müxəmməs, 1 müsəddəs, 1 tərcibənd, 1 tərkibbənd, 50 qitə, 52 müəmma var. "Bədayəul-vəsət" divanında qəzəllərdən və müsəmmələrdən başqa, tərcibbənd, qəsidə, qitə, tuyuq, lüğəz olmaqla 740 şeir toplanmışdır. Bu nümunələrdə insan və cəmiyyət həyatına aid öz baxışlarını qələmə almışdır. "Fəvaidul-kibar" ("Böyüklüyün faydaları") adlı divanına əsasən qəzəllər, müsammatlar yer almışdır, eyni zamanda, bir neçə tərcibbənd, tərkibbənd, qitə və müəmmalar da olmaqla cəmi yeddi yüz doxsan üç şeir vardır.